*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 103-108* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.103*

# Çinarə Köçərlinin uşaqlar üçün yazdığı əsərlərinin tərbiyəvi əhəmiyyəti

**Səadət Bayramova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Çinarə Köçərlinin əsərləri uşaqların məsuliyyət, dürüstlük və əməksevərlik kimi dəyərləri mənimsəməsinə yardım edir. Müəllifin əsərlərində təqdim olunan obrazlar və onların qarşılaşdıqları problemlər uşaqlara müxtəlif həyat dərsləri verməklə yanaşı, onların düşüncə tərzini genişləndirir və həyatın müxtəlif aspektlərini daha yaxşı anlamağa kömək edir. Çinarə Köçərlinin əsərləri uşaqların ətraf mühitə və insanlara qarşı münasibətinin düzgün formalaşdırılmasında mühüm rol oynayır. Məqalədə Çinarə Köçərlinin uşaqlar üçün yazdığı əsərlərin onların mənəvi-əxlaqi dəyərlərinin formalaşdırılmasında və inkişaf etdirilməsində oynadığı rol ətraflı təhlil olunub.
**Açar sözlər:** Çinarə Köçərli, uşaq ədəbiyyatı, əsər, tərbiyəvi əhəmiyyət, dəyər

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2024; qəbul edilib – 24.10.2024

# The educational significance of the works written for children by Chinara Kocherli

**Seadet Bayramova**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** Chinara Kocherli's works help children learn values such as responsibility, honesty and diligence. The characters presented in the author's works and the problems they face not only teach children various life lessons, but also expand their thinking and help them better understand various aspects of life. Chinara Kocherli's works play an important role in the correct formation of children's attitude towards the environment and people. In the article, the role played by Chinara Kocherli's works for children in the formation and development of their moral values is analyzed in detail.
**Keywords**: Chinara Kocherli, children's literature, work, educational significance, value

**Article history:** received – 10.10.2024; accepted − 24.10.2024

## Giriş / *Introduction*

Uşaqlarda əxlaqi düşüncənin, ictimai məsuliyyət hissinin formalaşdırılmasına erkən yaşlardan başlamaq lazımdır. Burada bədii ədəbiyyatın da payına əhəmiyyətli dərəcədə iş düşür. Maddi

dəyərlərin mənəvi normalar üzərində üstünlük təşkil etdiyi indiki dövrdə məktəb yaşlı uşaqların mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi daha da aktualdır. Uşaq ədəbiyyatı haqqında araşdrmaların aparıcı mövzusu bədii əsərlərin tərbiyəvi əhəmiyyətidir. Bu da uşaq ədəbiyyatı ilə bağlı məhz bu aspektin nə qədər önəmli olduğunun göstəricisidir.

## Əsas hissə / *Main Part*

Çinarə Köçərli uşaqlar üçün yazdığı "Marya işıltısı", "44 gün Qarabağda", "44 gün Qarabağda. Şuşa fəthi", "Qorxmaz bir macəra", "100 hekayə", "Peyğəmbərlər" və s. kitabların müəllifidir. Onun uşaq əsərlərində aparıcı xətti tərbiyəvi-əxlaqi ideya və məzmun təşkil edir. 3-7 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş "Marya işıltısı" (2019) xalq nağıllarından ilham alınaraq yazılmış müəllif nağılıdır. Həm rəngarəng illüstrasiyaları, həm də həşəratların necə, hansı şəraitlərdə yaşadığı, nə ilə qidalandıqları barədə məlumatlar verməklə, "Marya işıltısı" uşaqların dünyagörüşünün zənginləşməsinə xidmət edir. Beləliklə, onlar maraqlı bir nağılla yanaşı, həşəratlar haqqında zəngin ensiklopediya da oxumuş olurlar. Marya ilə birgə naməlum bir aləmə səyahət, insanlardan başqa canlıların mövcudluğu uşaqlara həm fərqli, yeni bir aləm kimi maraqlı, onu öyrənmək isə əyləncəlidir. "Nağıllar mücərrəd bir aləmə aid simvolik hadisələr ilə uşağı dünyaya hazırlayan öyrədici vasitədir" [1, s.281].

Reallıqda həşəratların həyatına nüfuz edə bilməyən uşaqlar üçün "Marya işıltısı" nağılında dünyanın ən kiçik varlıqları haqqında məlumatlar əldə etmək, onların da insan kimi dostluq edə, inciyə, küsə bildiyini öyrənmək uşaqlar üçün yeni bir aləm kəşf etməkdir. Əsər heyvanların, quşların, həşəratların dünyasına nüfuz etməklə onların simasında həm də bütün canlılara rəğbət və sevgi göstərmək, empati duyğusunu formalaşdırmaq baxımından faydalıdır.

Maryanın hər bir həşəratla görüşü və tanışlığı ayrıca bir fəsildə həm müstəqil, həm də ümumi nağılın tərkib hissəsi kimi əksini tapır. Uşaqlar həm də bunu öyrənir ki, kainat geniş, sakinləri ağlagəlməz dərəcədə çox və rəngarəngdir. Onlar həşəratların həyat tərzi, gündəlik qidalarını əldəetmə üsulu, yaşam şəraitləri ilə tanış olduqca insanlarla bənzər və fərqli xüsusiyyətlərini də anlamış olurlar. Yer kürəsinin insanlarla yanaşı, bütün digər canlılara da yetəcək qədər geniş, bərəkətli olduğunun fərqinə varırlar.

Adətən, uşaq ədəbiyyatını onların "dünyaya açılan ilk pəncərəsi" adlandırırlar. "Marya işıltısı" nağılı vasitəsilə başqa canlıların paralel həyatından xəbər tutan uşaq həşəratlardan qorxmur, öldürməyə çalışmır. Bilir ki, onların da yaşamaq haqqı var və insanın həyatına zərərləri olmadıqca toxunmaq lazım deyil. Nağılda fərqli hadisələrin təsviri fonunda uşaqlar nəyin yaxşı, nəyin pis olduğunun fərqinə varır, özləri ən doğru davranış seçimi edə bilirlər. Həmçinin əsərdə heyvan sevgisi, insanın yeganə şüurlu varlıq olaraq digər canlıların qayğısına qala bilməsi imkanından istifadə edib təbiəti qorumalı olduğu da təlqin edilir.

Nağılda Maryanın timsalında milli geyimə bağlılıq təmsil olunur. Nənəsinin başında kəlağayı, əynində güllü don görən nəvə bunu çox bəyənir və xahiş edir ki, ona da belə bir don tiksin. Beləliklə, Marya nağıl boyu geyim etibarilə nənəsinin kiçik proobrazına çevrilir. Bütünlüklə, nağıl təhkiyəçi tərəfindən nəql edilir, yalnız başlanğıcda bir abzas birinci şəxsin dilindən danışılır: "Biri vardı, biri yoxdu. Balaların şirin-şirin yatdığı zaman-zaman içində, xəlbir saman içində. Dəvə dəllal ikən, mən də qorxaq ikən. Qarışqa qaşıqda, parabüzən beşikdə ikən gəldim çay sahilinə. Orda tapdım bir qayıq. Bir tərəf tozluq dumanlıq, bir tərəf çayır çəmənlik. Bir tərəf sazlıq samanlıq. Bir tərəfdə boyaçılar boya boyayır rəng ilə. Bir tərəfdə dəmirçilər dəmir döyür dəng ilə. Anan yaxşı, atan yaxşı, qurtuldum əllərindən. Gəldim nənəmin yanına" [2, s.6].

Beləliklə, "Marya işıltısı" xalq nağılları poetikasında, dili və ritmində başlayır.

Nağılda yeri gəldikcə birbəndlik şeirlər və tapmacalar da yer alır. Tapmacalar uşaq təfəkkürü və bədii zövqün inkişafında mühüm rol oynadığından müasir uşaq ədəbiyyatında və pedaqogikada

aktiv istifadəsi qanunauyğundur. Qədim dövrlərdə tapmacalar yetkinləşmənin sınaqlarından biri hesab olunurdu. Janrın məhz bu funksiyasını nəzərə alaraq müəllifin sonda kəpənək, qarışqa, arı, parabüzən və s. həşəratlara həsr olunmuş tapmacalar təqdim etməsi balaca oxucunun nağıldan əldə etdiyi bilgiləri möhkəmləndirməsinə, bir növ, diqqətini, yaddaşını yoxlamasına xidmət edir:

*Əl-ayağı uzundur,*
*Rəngi yaşıldır onun.*
*Yarpaqlardan seçilmir,*
*Çaş-baş salır öz ovun.* [2, s.85]

“Marya işıltısı” nağılı əsasında uşaqlar üçün eyniadlı cizgi filmi də çəkilib. Bu tendensiya alqışlanandır. Dünya təcrübəsi göstərir ki, uşaqlar (müasir dövrdə elə böyüklərin də əksəriyyəti) izləməyi oxumaqdan daha çox sevir. Buna görə də uşaqlar üçün yaradılan bədii personajların kitabdan filmə, filmdən kompüter oyunlarına və s. keçidləri çox yaxşı effekt verir. Marya sərgüzəştlərini çoxaltmaqla uşaqlar üçün serial-kitablar yazmağın imkan yaratdığı bir qəhrəmandır.

Nağıl məktəbəqədər yaşlıların ədəbi əsərlərlə tanışlığı üçün gərəkli bir mərhələdir. Uşaq ədəbiyyatı inkişafının bütün mərhələlərində şifahi xalq ədəbiyyatına sıx bağlıdır. Belə ki, folklor nümunələri, xüsusən nağıllar dövr və zamandan asılı olmayaraq uşaqlar üçün həm ən maraqlı ədəbi nümunə, həm də uşaq mütaliəsinin ən vacib komponenti olaraq qalır. Buna görə də çağdaş uşaq yazarları genetik yaddaş etibarilə şifahi xalq yaradıcılığına, nağıllara bağlıdır – xalqın yaddaşından süzülüb əsrlərdən keçən mətnlərdən təsirlənərək yeni-yeni əsərlər yaratmağa davam edirlər.

Uşaqların onlar üçün yazılan ədəbi nümunələrdən ən çox nağılı sevmə səbəblərindən biri bu mətnlərdə təxəyyülün gerçəyi xeyli üstələdiyidirsə, başqa bir cəhəti hər zaman xeyirin qələbəsi ilə bitməsidir. Şərin məğlubiyyəti, xeyirin istisnasız bütün hallarda qələbəsi uşaqlarda yaxşılığa, gözəlliyə inam hissini qüvvətləndirir. Onlar nəticənin bu prosesdə yaxşı tərəf olmaqdan qaynaqlandığının fərqinə varanda yaxşı olmağa çalışırlar. Bu vəsilə ilə uşaqlar qavrayırlar ki, maddi və fiziki güc nə qədər önəmli olsa da, qalibiyyətin səbəbi mənəvi üstünlükdür. Beləliklə, bədii mətnlərdə vətənpərvərlik, dürüstlük, xeyirxahlıq kimi xüsusiyyətlər uşaq üçün cazibədarlaşır, onlar kitabda tanış olduğu qəhrəmanlara bənzəyib qalib olmağa çalışırlar. Uşaq nümunə götürərək inkişaf etdiyi üçün xarakterinin formalaşmasındakı örnək obrazın kimliyi, necəliyi vacib məsələdir. Bugünkü uşaqlar Vətənin gələcəyi, sabahıdır. Onlar üçün yaradılan ədəbiyyat vətənpərvərlik tərbiyəsinin binası, özülü sayıla bilər.

Çinarə Köçərlinin vətənpərvərlik mövzusunda yazılmış “44 gün Qarabağda” (2022) kitabında məktəb yaşlı uşaqların doğmalarının – kimisinin atası, kimisinin əmi və dayısı, yaxud qardaşlarının 44 günlük Vətən müharibəsindəki döyüş yolundan, torpaqlarımızın müdafiəsi uğrundakı qəhrəmanlıqlarından bəhs edən hekayələr toplanıb. Bu kitab qələbəyə aparan yolda igid oğullarımızın yaşantılarının uşaq dili ilə anladılmasını nəzərdə tutur.

Uzun illərdən sonra qələbə mövzusu bütün ədəbiyyatımız üçün olduğu kimi, uşaq ədəbiyyatının da aparıcı mövzularından birinə çevrilib. Ç.Köçərlinin 44 günlük ədalətli müharibəmizə və qələbəyə həsr olunmuş kitablarındakı hekayələr real personajlar və onların qəhrəmanlıqları fonunda ərsəyə gəlib. “44 gün Qarabağda” kitabının I cildində müəllif uşaqlara müraciət edərək özünün müharibə şəraitində böyüdüyündən, 5 yaşında ikən Birinci Qarabağ müharibəsi başladığı üçün bütün yurd-yuvası dağıdılmış insanlar kimi, köçkünlük həyatı yaşadığından, uşaqlıq illərinin düşdüyü 90-cı illərin siyasi qeyri-sabitlik və iqtisadi problemlər içərisində keçdiyindən bəhs edir. Uzun illər ağrısını iliklərimizədək hiss etdiyimiz işğal tarixlərindən, həmin tarixlərdə zəbt olunmuş vətən torpaqlarından söhbət açır. Müəllifin “Kitabı oxuyarkən” başlıqlı yazısı “30 ildən sonra” epiqrafı ilə azyaşlı oxucuya təqdim olunur. Burada 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinin və ölkəmizdə hərbi vəziyyətin elan olunması, Ali Baş Komandanın çağırış xarakterli çıxışları və hər bir vətəndaşın bir nəfər kimi səfərbər olması, torpaqlarımızın azadlığı uğrunda

döyüşə hazır olmağımızın qüruru əksini tapır: “Hekayələri oxuduqca Vətən müharibəsini qismən də olsa, gözünüz önündə canlandıracaq, üzərində gəzdiyiniz torpaqlara görə kimə borclu olduğumuzu biləcəksiniz. Həmçinin tarixi torpaqlarımızın işğal günlərini oxuduqca tarixi keçmişimizi də daha dərindən biləcək, əbədi, əzəli düşmənimizi tanıyacaqsınız” [3, s.9].

Vətənpərvərlik mövzusunda yazılan mətnlər uşaqlarda milli-mənlik şüurunun formalaşmasına xidmət edir. Uşaq anlayır ki, Yer kürəsi insanın ümumi böyük evi olsa da, onun sevməli, qürur duymalı və ən əsası, qorumalı olduğu başqa bir ev də var – vətən, yəni doğulduğun ölkə, ayaq basdığın torpaq. Bədii ədəbiyyat uşaqlara hiss və duyğuları, insani münasibətləri aşılayır. Bunları edərkən uşaqlar öyrədildiyinin fərqində olmasalar, effekt daha yaxşı alınır. Mənəvi bütövlüyə xidmət edən yaxşı əmələ görə sevinmək, həmvətəninin qəhrəmanlığı ilə qürur duymaq, başqasının kədərinə onunla birgə üzülmək kimi duyğular uşaqlara həssaslıq aşılayır.

44 günlük ədalətli müharibəmizdən keçən zaman çox olmasa da, Ali Baş komandan, ordu və xalq birliyindən doğan qələbəmizə həsr olunmuş xeyli bədii əsər, o cümlədən uşaq ədəbiyyatı nümunələri yazılmaqdadır. Çinarə Köçərlinin sözügedən kitabları uşaqlara öz xalqının mübarizələrlə zəngin tarixi keçmişinə bələd olması məqsədi daşıyır. Müəllif bu nümunələr vasitəsilə balaca oxucuların çağdaş ideyalarla ayaqlaşmasını, vətəndaşlıq hissini uca tutmalı olduğunu təlqin edir. Bu əsərlərlə tanış olan uşaq bəşəri ideyaların, milli özünüdərk düşüncəsinin layiqli varisi kimi yetişə bilir.

Kitabdakı “İgid qardaşım”, “Hay ver mənə, atam Leytenant”, “Dostumun zirvəsi”, “Bir şansım olsaydı”, “Səmada azad qartal”, “Yerə düşməyən bayrağım”, “Şəhidlər ölməz”, “Gəncəlidən, Bərdəlidən köçkün olmaz”, “Zəfər zəfərlə dönənindir” və s. hekayələrdə Vətən müharibəsi qəhrəmanlarının real həyat və döyüş hekayətləri nəql edilir. Hekayələri oxuduqca uşaqlar əmin ola bilirlər ki, igidlik hər bir insanın lap uşaqlıqdan aldığı vətənpərvərlik tərbiyəsi, ona aşılanan yurd sevgisi fonunda yaranan qanunauyğunluqdur.

“Zəngilan rayonunun kəndlərini azad etmək uğrunda döyüşlərdə Çingiz və dostları mühasirəyə düşdülər. İki gün mühasirədə qalan döyüşçülər çıxış yolu tapmalı idilər. İgid zabitlər cavan əsgərlərin mühasirədən sağ çıxmasına çalışırdılar. Yeganə çıxış yolu özlərinin şəhid olması idi. Odur ki, əsgərlərə düşməni arxadan vurmaq əmrini verdilər. Özləri isə düşmənlə üz-üzə döyüşməyi seçdilər. Hücuma keçən düşmənlər zabitləri vurarkən əsgərlər arxadan keçib mühasirədən xilas oldular. Zabitlərin şəhid olması Çingizi və dostlarını çox sarsıtmışdı. Lakin əsgərlərini qorumaq üçün canlarından keçmələri növbəti döyüş meydanına cəsarətlə atılmalarına səbəb olmuşdu” [3, s.44-45].

“İgid qardaşım” hekayəsindən gətirilən bu nümunədən göründüyü kimi, Çingizin timsalında şəhadət zirvəsinə ucalmış oğullar elə uşaqlıqdan fədakarlıq və sədaqət kimi xüsusiyyətləri ilə öz ailələrində, çevrələrində nümunə ola bilən gənclərdir. Onlar taqım yoldaşlarını, dostlarını xilas etmək üçün təhlükəyə atılmaqdan, öz canlarını fəda etməkdən əsla qorxmayan gerçək qəhrəmanlardır.

Azərbaycan əsgərinin ürəyindəki yurd eşqi, 44 günlük döyüş ərzində qanı, canı bahasına yazdığı şanlı dastan “44 gün Qarabağda” kitabının səhifələrində canlandıqca oxucu həm təsirlənir, həm də qürur duyur. “Döyüşün çətinlikləri onu əsla yormurdu. Əksinə, hər yeni qalibiyyət əhvalına xoş təsir edir, dostları ilə birlikdə sevinirdi. Ta ki dostu İqbalın düşmən gülləsinə tuş gəlməsinə qədər. Bu hadisə İsraili çox sarsıtmışdı. Özünə heç cürə gələ bilmirdi. Digər dostu Əkbərin: “İndi daha da güclü olmalıyıq. İndi sarsılmaq zamanı deyil. Düşməni həm də İqbal üçün məhv etməyə çalışmalıyıq” sözlərindən sonra yenidən özündə güc topladı. Torpaqların alınmasında, xüsusən Talış yüksəkliyində davamlı igidliklər göstərdi. Qızğın döyüş günlərindən birində digər yaxın dostu Əkbər düşmən tərəfindən atılan minaatan atəşi nəticəsində şəhid oldu. İsrail isə boynunun üç yerindən yaralandı. Bu dəfə İsrailin qəlbindəki böyük dost sevgisi düşmənə olan nifrətlə əvəz olunmuşdu. Onların qisasını almaq üçün daha da qəzəblə döyüşəcəkdi” [3, s.23].

Kitabdakı belə nümunələrdən görünür ki, vətənin igid oğullarının ürəyində dosta, doğmaya sevgi, mərhəmət duyğusu nə qədər böyükdürsə, işğalçı və qəddar düşmənə nifrət bir o qədər sonsuzdur. Döyüşdən-döyüşə, qələbədən-qələbəyə aparan qüvvə də bu iki güclü duyğunun bir alovlu qəlbdə yer tapmasıdır.

"44 gün Qarabağda" kitabının ikinci cildi "Şuşa fəthi" adlanır. I cilddə olduğu kimi, bu kitabın annotasiyasında da müharibə iştirakçıları, şəhid və qazilərimizin qəhrəmanlıqlarının uşaqların dilindən nəql olunduğu barədə qeyd oxuyuruq. Burada Qarabağın incisinin işğaldan azad olması haqqında "Şuşanın körpə qartalı", "Boğulan düşmən", "Qənimətdən əmanətə", "Portretlər sırasında", "Cəsədlər arasında", "Əbədi ayıran maşın" və s. mətnlər yer alıb. Ümumi ideya, məzmun qatı və üslubu, poetikası etibarilə, kitablar tamamilə bir-birini tamamlayır. Hər bir hekayə ayrıca real obraz və onunla bağlı döyüş əhvalatları, qəhrəmanın müharibəyəqədərki vətənpərvərlik tərbiyəsinin formalaşması, doğma yurda bağlılıq, düşmənə aman verməyən igidliklər haqqında əhvalat və xatirələrdən ibarətdir. Uşaqlara torpaqlarımızın işğaldan azad olunması və vətənin bütövlüyünə qovuşmasının döyüşçülərimizin canı və qanı bahasına nail olunduğu aşılanır. Məqsəd mütərəqqidir: hər iki kitab xatırlamaq, şəhidləri, ümumiyyətlə, döyüş iştirakçılarını yaddan çıxmağa qoymamaq məqsədi daşıyır.

Kitabdakı ən təsirli əhvalatlardan biri şəhidin bacısı qızının dilindən danışılan "Portretlər sırasında" hekayəsidir. Bacısının çəkdiyi şəhid portretləri arasında Milli qəhrəman Polad Həşimovun da rəsmini görən XTQ giziri Mehti Şıxəliyev ondan "Mənimçün də belə bir portret çəkərsən?" – deyə soruşur. Səhərdən yuxusunu qarışdıran bacı yalnız şəhid portretləri çəkdiyini deyib qardaşının şəklinin bu sırada olması fikrini beynindən qovur. Aprel döyüşlərində qəhrəmanlıq göstərən Mehti şəhidlik zirvəsinə ucalmaq arzusunu dilə gətirib əlavə edir: "Bax o vaxt şəhid olsa idim, indi bu portretlərin arasında mənimki də olardı" [4, s.26].

Gizirin bu zarafatyana sözləri onun taleyinə çevrilir. Arzusu hekayənin sonunda gerçəkləşəndə, portreti şəhidlərin rəsmləri ilə bir sırada yer alanda təsirlənməmək olmur.

"44 gün Qarabağda" kitablarında döyüş yolu əksini tapan Qubat Əliyev, Mehrab Niftəliyev, Anar Vəlizadə, Orxan Babayev, Elcan Məmmədov, İsrail Cəfərzadə və başqa kimi yüzlərlə qəhrəman vətəni sevməyin onu qorumaqdan ibarət olduğunun örnəyini nümayiş etdirdilər. Xalqın milli qürurunu yenidən özünə qaytaran bu qəhrəmanlar öz həyat yolu və əməlləri, "uf" demədən vətən uğrunda canlarından keçmələri, azğın düşmən qarşısında məğrur davranışları ilə bugünkü uşaqlara da, gələcək nəsillərə də dərs verdilər. Çinarə Köçərlinin bu əhvalatları toplaması, onları hekayələşdirib uşaqlara təqdim etməsi təqdir olunandır.

Qeyd edək ki, Çinarə Köçərlinin uşaqlar üçün nəzərdə tutduğu bütün kitabları dizayn və çap keyfiyyəti baxımından uğurludur. Kitablar verilən bilgilərin daha yaxşı qavranılmasına xidmət edən illüstrasiyalarla bəzənib. "44 gün Qarabağda" kitabının hər iki cildində bəzi illüstrasiyalar şəhidlərin real görüntüsünə uyğunlaşdırılıb. Kitabların sonunda müharibədə istifadə edilən hərbi texnika rəsmlər və kiçik açıqlamalarla uşaqlara tanıdılır. Bundan əlavə, döyüşçülərin qəhrəmanlıqlarına görə təltif olunduğu medallar, hərbi vəzifələr və müxtəlif hərbi qoşunlara məxsus paqonlar şəkil və açıqlamaları ilə birgə təqdim olunur. İkinci cildin sonunda bir səhifədə Qarabağ torpaqlarının işğal edilmiş bölgələrinin qərənfil şəkli ilə, digər səhifədə qarşısında işğaldan azad olunmuş ərazilərin xarıbülbül rəsmi ilə əksi isə anlamlı və yaddaqalan təqdimatdır.

## Nəticə / *Conclusion*

Çinarə Köçərlinin adıçəkilən kitabları uşaqlara mənəvi-əxlaqi dəyərləri, ictimai davranış qaydalarını aşılamaq baxımından əhəmiyyətli olduğu kimi, onlarda nəyin yaxşı, nəyin pis olduğu barədə fikir yürütmək qabiliyyətini, ilkin ictimai dünyagörüşünü formalaşdırmağa xidmət edən tərbiyəvi əhəmiyyətə malikdir.

**Ədəbiyyat / *References***

1. Altunbay, M., Kara, O. "Çocuk masallarında rol-model olarak sunulan kahramanların sergiledikleri özellikler bağlamında incelenmesi". IV Uluslararası Çocuk ve Genclik edebiyatı sempozyumu, Bildiriler kitabı. – İstanbul, 2017. – 546 s.
2. Köçərli, Ç. Marya işıltısı. – Bakı, 2019. – 89 s.
3. Köçərli, Ç. 44 gün Qarabağda. Hekayələr. I cild. – Bakı: Ting nəşriyyatı, 2022. – 111 s.
4. Köçərli, Ç. 44 gün Qarabağda. Şuşa fəthi. Hekayələr. II cild. Bakı: Ting nəşriyyatı, 2022. – 111 s.

## Воспитательное значение произведений Чинары Кочерли для детей

**Саадат Байрамова**
Доктор философии в филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** Произведения Чинары Кочерли помогают детям усвоить такие ценности, как ответственность, честность и трудолюбие. Представленные в произведениях автора персонажи и проблемы, с которыми они сталкиваются, не только преподают детям различные жизненные уроки, но и расширяют их мышление, помогают лучше понять различные стороны жизни. Произведения Чинары Кочерли играют важную роль в правильном формировании отношения детей к окружающей среде и людям. В статье подробно анализируется роль произведений Чинары Кочерли для детей в формировании и развитии их нравственных ценностей.
**Ключевые слова:** Чинара Кочерли, детская литература, произведение, воспитательное значение, ценность